# DOSTLAR



*Şahvələd ƏLİYEV*

***(Əvvəli ötən sayımızda)***

Qəflətən Adil müəllimin ölümü Əliağanı dəhşətə gətirir və o bu gözlənilməyən ölümü eşidəndə vahimələnir. Əliağa bu ölümü həqiqət yox, yuxu sanır və o, əllərini göyə qaldırıb ağlaya-ağlaya bu sözləri deyir:

"İlahi, bu nə müsibət idi başıma gəldi? Ürəyim istəyən dostlarımı bir-bir itirdim. Axı mən nə günahın sahibiyəm ki, başıma bu müsibətlər gəlir. Şükür olsun sənə, ilahi, mənim əlimdən axı nə gələr? Ümidim ancaq sənədir, hər şeyi bilən sənsən" - deyib hönkür-hönkür ağlamağa başlayır.

Nə edə bilərdi Əliağa, əlindən nə gələrdi? Onun ancaq bir çarəsi vardı, səbr etmək, Allahın qəzavü-qədərinə dözmək! Çünki Əliağa kimi milyonlarla insanın başına bundan da ağır müsibətlər gəlir. Onlar bu müsibətlərlə razılaşmağa məcburdurlar. Kimin ixtiyarı var ki, Allahın işinə qarışsın? Necə ki, Allah-taala Quranda buyurur:

"Həqiqətən sizi bir qədər qorxu, aclıq, malın azlığı, can və mallarınızla imtahan edəcəyik, səbrlilərə müjdə ver. O kəslərə ki, başlarına müsibət gələndə "Həqiqətən biz Allah üçünük və ona tərəf qayıdarıq". (Bəqərə surəsi, ayə 155, 156).

Bəs, tək övladı olan ata-ana o övladı itirəndə nə etməlidir? Onlar bu ağır müsibətdən necə çıxa bilərlər? - Ancaq və ancaq müqəddəs kitabımız Quranın ayələri sayəsində. Quranda Allah-taala öz ayələrində bildirir ki, ey insan, ayıl, pis əməllərdən əl çək, düzgün haqq yoluna - Allah yoluna qayıt, nə qədər gec deyil keç bu yola. Öləndən sonra artıq gec olar, necə ki Allah-taala Quranda buyurur: "Allah ölümü və həyatı yaratdı ki, sizlərdən hansınızın yaxşı əməl sahibi olduğunu sınasın. O, izzət sahibi və bağışlayandır". (Mülk surəsi, ayə 2).

Əliağa arif adam idi, bu kəlamları kitablardan oxumuşdu və o bilirdi ki, hər şey Allahın qüdrətindən asılıdır və o dərk edirdi ki, hətta ağacdan bir yarpağın düşməsi belə Allahın izni ilədir. Çox yaxşı bilirdi bunları Əliağa və ona görə etiraf edərək dedi:

-İlahi, şükür olsun sənin kəramətinə. Sənsən bizi yaradan da, vaxtı gələndə öz dərgahına aparan da. Ona görə də mən bundan sonra nə qədər mənə ömür versən və nə qədər yaşasam, əməli-saleh işlərlə məşğul olacam, ta ki, sənin mömin bəndən olana qədər. Bu haqq yolunda mənə kömək edib mənə yardımçı ol, İlahi!

Bu sözlərdən sonra Əliağa ruhən rahatlıq tapır. O, həmişə yas içində ola bilməzdi, həyatında dəyişiklik etməli idi. Ona görə də o özündə inam yaradaraq əvvəlki həyatına qayıdır və biznesi ilə yenidən məşğul olmağa başlayır. Onun işlə əlaqədar dost-tanışı çox idi və bunların arasında etibar etdiyi dostlar da var idi. Əgər işdə belə etibarlı dostlar olmasa görülən işlər necə uğurlu alına bilər? Ona görə də o özünə üç etibarlı dost seçmişdi və əsas işləri onların əli ilə görürdü. Belə ki, bu dostlar Əliağanın göstərişi ilə xaricdən onun dükanlarına malı alıb gətirirdilər.

Bunlardan biri uzun müddət Rusiyada yaşamışdır. Əsli Qərbi Azərbaycanın Göyçə mahalından idi.

Əliağa onunla Maxaçqalada mal alveri edirdi və orada onunla yaxından tanış olmuşdu. O, Əliağaya işdə təmiz, ticarəti yaxşı bilən, bacarıqlı, işgüzar bir adam təsiri bağışlamışdı. Sonralar Əli adında (ona Alik deyirdilər) bu adamla dost olur və onu öz yanında işə götürür. Alik özünə Əliağada o qədər inam yaratmışdı ki, hətta Əliağa öz şəxsi yüz əlli minlik maşınını sürməyi ona etibar etmişdi. Qaldı o iki etibar etdiyi dostlar, Əliağanın tanıdığı və etibar etdiyi həmyerliləri idi. Onların da kiçik müəssisələri olub, iflasa uğradıqdan sonra Əliağa onları yanında işə götürmüşdü. Bu dostlar da Əliağanın verdiyi tapşırıqları canla-başla yerinə yetirərdilər və öz işlərində çox diqqətli idilər. Onlar da Əliağanın etibarını qazanmışdılar.

Əliağanın vəzifədə olan sevimli dostunun vəfatından sonra Alik deyilən dostu, şirin dili ilə onu "stress" vəziyyətdən çıxartmağa çalışırdı. Onun nə məqsədlə bunu etdiyini, fikri nə idi onu ancaq Allah bilərdi.

Digər tərəfdən Əliağa həmişə belə hüznlü vəziyyətdə qala bilməzdi. O, qəm-qüssəni unutmuş, nəhayət ki, üzü gülməyə başlamışdı. Dediyimiz kimi, Əliağa çox xeyriyyəçi adam idi, çətinliyə düşənlərə kömək əlini uzadırdı. Bütün bu müsbət keyfiyyətlər onda Allaha inamdan yaranmışdı. O bilirdi ki, bu var-dövləti Allah ona verib və verən Allah bir göz qırpımında ondan ala da bilər. Ona görə də, o, xeyriyyəçi yolu ilə addımlamağa davam edirdi. Bu yolda xərclədiyi pulların əvəzinə Allah onun biznes sahəsində gəlirini daha da artırırdı. Belə xeyriyyəçi, səxavətli insanlar haqqında Allah-taala Quranda buyurur: "Qızıl, gümüş, xəzinə toplayıb onu Allah yolunda sərf etməyənlərə ağrılı bir əzabdan xəbər ver". (Tövbə surəsi, ayə 34).

Bu ayədəki xəbərdarlıqdan sonra Əliağa bu haqq yolundan kənara çıxa bilərdimi? O hətta niyyət etmişdi, əgər Həcc ziyarətinə getsə, başqa üç-dörd nəfəri də öz hesabına ziyarətə aparacaq. Bu fikir, niyyət idi Əliağanı həyatda yaşadan.

Əliağa təbiət qoynuna seyrə çıxmağı çox sevirdi. Çünki o Azərbaycanın cənub bölgəsinin dağ rayonlarından birində dünyaya göz açmışdı və bu gözəl guşənin təbiəti, füsunkar mənzərələri, təmiz dağ havası onun hafizəsində iz buraxmışdı. Sonralar ordu sıralarına qayıdan Əliağa işlə əlaqədar Bakıya köçmüşdü və iş-gücün başdan aşmasına baxmayaraq o vaxtaşırı ailəvi təbiət qoynuna istirahətə gedirdi. Dostunun ölümündən sonra isə bir dəfə də olsun təbiət qoynuna istirahətə getməmişdi və heç getmək də istəmirdi. Ancaq onun beyninə birdən-birə düşmüşdü ki, rəhmətlik dostu ilə ailəvi istirahət etdikləri yerlərə bir baş çəksin. Ona görə də o Aliki çağırtdırdı və ona belə bir tapşırıq verdi: - Üzümüzə gələn istirahət gününə qədər hazırlıq işləri gör. Əvvəllər getdiyimiz yerlərdən birinə iki günlük istirahətə gedəcəyik. Özün yaxşı bilirsən haranı deyirəm.

Alik "baş üstə" deyib kabinetdən çıxdı və bu tapşırığa görə çox sevindi. Onun çoxdan arzuladığı məqam artıq gəlib çatmışdı. İndi o çoxdan hazırladığı planını rahat həyata keçirə bilərdi...

Alik dediyimiz kimi Rusiyada yaşamışdı və onu iş-peşəsi fırıldaqla pul qazanmaq olmuşdu. Erməni dilini yaxşı bildiyinə görə özü kimi bir erməni dostu ilə birləşib öz çirkin əməlləri ilə insanlara kələk gəlirdilər. İndi də onlar "samaqon" deyilən içki hazırlayıb və onu təmiz araq adı ilə insanlara sırıyırdılar. Qazandıqları pulları yemək-içməyə, başqa nəlayiq işlərə sərf edirdilər. Çox keçmir onların bu fırıldaqlarının üstü açılır, onları həbs edirlər və 8 il iş kəsib cəzaçəkmə koloniyalarına göndərirlər. Nəhayət ki, hər iki dost məhbus həyatını başa vurub azadlığa çıxır. Azadlığa çıxanı dostlar, sanki günahını başa düşüb, azadlıqda bir də məhbus həyatına düşmək istəməyən insanlar kimi ah çəkib, dərindən nəfəs alırlar. Onlar bu nəfəsi almaqla guya demək istəyirlər ki, əlvida məhbus həyatı, bir daha bizim ayağımız bura dəyməyəcək.

Azadlığa çıxan dostlar bir müddət avara-avara gəzib veyilləndilər. Onların daxilində olan o cinayətkarlıq hissi yavaş-yavaş baş qaldırmağa başladı.

Onlar bu dəfə narkotik maddə alveri ilə məşğul olmağa başladılar. Dostu, Aşot adında erməni, ixtisasca əczaçı həkim olduğundan hər cür narkotik maddə hazırlamağı bacarırdı və "ağ ölüm" adlanan bu maddəni əhaliyə satmağa başladılar. Az bir vaxt ərzində çoxlu pul qazandılar. Təzədən ilişməsinlər deyə və bu sahədə yüksək təcrübəyə malik olduqlarına görə aradan çıxırlar. Erməni dostu Aşot Rostov vilayətinə köçür və orada özünə xüsusi aptek açaraq fəaliyyətə başlayır. Alik isə Maxaçqalaya köçür və burada kiçik müəssisə açaraq mal alveri ilə məşğul olur. Məhz burada Əliağa ondan mal alanda onunla tanış olur və onun çox bacarıqlı olduğunu görərək, onu yanında işləməyə dəvət edir. Alik onun təklifini razılıqla qəbul edir.

Əliağa Dubaydakı şirkətlərin birindən zəng gözləyirdi. O, bu şirkətdən kənd təsərrüfatı texnikası alacaqdı. Bu texnikaya nə qədər maliyyə xərci lazım olduğunu ona bu gün zəng edib deyəcəkdilər.

Nəhayət, şirkət Əliağaya zəng etdi və iki milyon dollara başa gəldiyini ona bildirdi. Əliağa bu məbləğə razı oldu. Sonra o öz tanıdığı həmyerli dostlarını yanına çağırıb onlara belə tapşırıq verdi:

-Diqqətlə qulaq asın, şəhərdəki şirkətlərimizə, mağazalarımıza baş çəkin. Yığılmış vəsaiti toplayıb iki milyon dollar hazırlayın və bir həftə ərzində pulu şirkətlərin birinə köçürmək lazım gələcək. Bilirsiniz də, bu şənbə iki günlüyə istirahətə gedirik. O vaxta qədər pulu yığıb hazırlayın. İstirahətdən sonra hansı hesaba köçürməyi sizə deyəcəm, aparıb köçürərsiniz. Sualınız var, sizə qaranlıq bir şey qaldımı?

-Xeyir, sözündən sonra Əliağa dedi:

-Onda gedin işinizlə məşğul olun.

Onlar kabinetdən çıxdılar. Həmyerlisi olan dostlardan birinin adı Əli, o birinin adı isə Vəli idi. Əli-Vəli kabinetdən çıxıb Alikin yanına getdilər. Alik onlara bəzi tapşırıqlar verdi və sonra öz işləri ilə məşğul olmağa başladı.

O, yola lazım olan çoxlu ərzaq məhsulları aldı, quzu cəmdəklərini doğratdırdı, meyvə-tərəvəzi qutulara yığdırdı, çoxlu təbii su və şirələr alıb maşına yüklətdirdi. Hər şeyi deyilən vaxtdan da tez hazırladı. Şənbə gününün səhəri onlar artıq Əliağanın evinin qarşısında gözləyirdilər.

Əliağa bu il ailəsini istirahətə öz doğma rayonunda tikdirdiyi villasına göndərmişdi. Özü isə bildiyimiz kimi şəhərdə qalmışdı ki, bir-iki günlüyə, vaxtı ilə dostu ilə keçirtdiyi Quba istirahət zonasına getsin.

Əliağa həyətə düşdü, dostları onu gözləyirdilər. O, dostları ilə salamlaşdı və öz maşınına doğru addımlayaraq maşına oturdu. Həmişəki kimi Alik motoru işə saldı və yola düşdülər. Şirkət maşınını isə Əli idarə edirdi. Onlar Azərbaycanın şimal bölgəsinin ərazısində yerləşən "Qədim Quba" istirahət zonasına doğru istiqamət aldılar. Onlar artıq meşəyə yaxınlaşırdılar. Bu meşə Əliağanın çox xoşuna gəlirdi. Bu meşənin ağacları cənub bölgəsinin meşə ağaclarından fərqlənirdi. Buradakı ağacların əksəriyyəti şam ağacları idi və bu ağaclar o qədər uzanıb göyə dikənmişdilər ki, hətta yerə günəş şüası belə düşmürdü.

Ağacların altında taxtadan "pələmə"-lər düzəldib onların üzərində palaz, xalça sərmişdilər, istirahətə gələnlər bu pələmələrin üstünə çıxıb orada qoyulan mütəkkələrə dirsəklənib bardaş quraraq oturardılar.

Əliağagil az bir vaxt ərzində meşəyə çatıb maşından düşdülər. O dəqiqə istirahət zonasının işçiləri Əliağanı yaxşı tanıdıqlarına görə onu səmimi qarşıladılar.

Əliağa həsrətlə ətrafa baxmağa başladı. O, böyük ağaca yaxınlaşanda bu ağacın altında Adil müəllimin ağaca söykənib onunla şirin-şirin söhbət etməyi yadına düşdü. Sonra onun ailəvi tutduğu pələmənin üstündə bardaş qurub istirahət etmələri gözünün qabağına gəldi və gözləri yaşardı. Necə də xoşbəxt günlər idi o günlər. Onlar istirahətə gələndə meşədə quşların cəh-cəhəsi eşidilərdi, istirahətə gələnlərin sayı-hesabı yox idi. Çalıb-oynayan kim, yeyib-içən kim. Hamının üzü gülür. İndi isə Əliağa bunları görmədi. Sanki quşlar da, meşə də yasa batmışdı. Onlar da Adil müəllimin yoxluğundan xəbər verirdi. Meşə Əliağaya çox soyuq təsir bağışladı və istirahətə gələnlərin az olduğunu gördü.

Bu vaxt kafe işçiləri Əliağa müəllimin üç nəfərlə gəldiyini görəndə gözlərinə inanmadılar. Onlar Əliağa müəllimə sarı qaçıb onu salamladılar. Sonra Əliağa müəllimin ailəvi gəlmədiyinə təəccüblənərək soruşdular:

-Əliağa müəllim, xoş gəlib səfa gətirmisiniz, niyə ailəvi yox, tək gəlmisiniz? Bəs Adil müəllim hanı?

Bu söz Əliağa müəllimin yaralı yerinə toxundu və bayaqdan doluxsunmuş gözlərindən yaş axmağa başladı. Bunu görən kafe işçiləri dedikləri sözə peşiman oldular və təəccüblə Əliağa müəllimlə gələn dostların üzünə baxdılar.

Dostlar him-cimlə kafe işçilərini başa saldılar ki, Adil müəllim yoxdur, o rəhmətə gedib. Bunu bilib təəssüflənən kafe işçiləri tez onların pələməsini hazırladı və onları yerbəyer etməyə başladılar. Bu vaxt istirahət zonasının müdiri Rəşid müəllim də gəldi, o da Əliağa müəllimlə görüşdü və onunla səmimi söhbətə başladı. Söhbət uzun çəkdiyindən Əliağa müəllim özündə çox yorğunluq hiss etdi və o mütəkkəyə dirsəklənərək ayaqlarını uzatdı. Təmiz meşə havası onun ciyərlərinə dolurdu. Kafe işçiləri Əliağa müəllimi yaxşı tanıyırdılar və bilirdilər ki, o istirahətə gələndə hər şeyi özü ilə gətirir. Ona görə də ona hərtərəfli qayğı göstərirdilər və tez dəmlənmiş pürrəngli çay gətirib onun qabağına qoyurlar.

Əliağa müəllim çayı içə-içə yorğunluğu canından çıxır və buna baxmayaraq fikirlər də ondan əl çəkmirdi. Dostu ilə bağlı xatirələr yadına düşürdü.

***(Davamı var)***